

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 172 (23.083)

*13 sentyabr 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Nizami rayonunun Keşlə qəsəbəsindəki 227 nömrəli tam orta məktəbdə və Nəsimi rayonunda general-leytenant Kərim Kərimov adına 8 nömrəli tam orta məktəbdə əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısı həmin gün Bakının Səbail rayonunda Həbib bəy Mahmudbəyov adına 2 nömrəli texniki-humanitar liseydə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qremingeri qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də NATO Parlament Assambleyasının sədri Paolo Allinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 12 sentyabr tarixli Sərəncamı ilə 2018/2019-cu tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş bir qrup tələbəyə Prezident təqaüdü verilmişdir. Həmin tələbələr arasında Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin məzunları da vardır.

**Əliyev Əbdülhüseyn Telman oğlu**

**Əliyeva Arzu Əhməd qızı**

**Hacıyev Millət Xaliq oğlu**

**Kəngərli Zöhrə Azər qızı**

**Məmmədov Elvariz Rza oğlu**

**Zeynalova Zübeydə Həsən qızı**

## Muxtar respublikada infrastruktur quruculuğu uğurla həyata keçirilir



*Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq iqtisadiyyatın və sosial sahənin ahəngdar fəaliyyəti üçün bütün sahələrdə infrastruktur yenilənmiş, əsas kapitala vəsait qoyuluşları artmışdır.*

Həyata keçirilən tədbirlərin davamı olaraq təkcə 2018-ci ilin yanvar-iyul aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 579 milyon 300 min 400 manat vəsait yönəldilmişdir ki, bu da 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,1 dəfə çoxdur.




Ümumilikdə, 2008-ci ildən 1 avqust 2018-ci il tarixədək muxtar respublikada iqtisadi və sosial sahələrə 8 milyard 516 milyon 306 min 800 manat vəsait yönəldilmişdir. Vəsait qoyuluşlarının 7 milyard 654 milyon 914 min 800 manatı və ya 89,9 faizi tikinti-quraşdırma işlərinin payına düşüb.

Bu dövr ərzində muxtar respublikada infrastruktur quruculuğu tədbirləri çərçivəsində 105 elm və təhsil müəssisəsi, o cümlədən 19112 şagird yerlik 66 ümumtəhsil məktəbi, 201 inzibati bina, 22 nasos stansiyası, 106 subartezian quyusu, 56 körpü, 222 mədəniyyət müəssisəsi, 123 səhiyyə müəssisəsi, 653 istehsal və xidmət sahəsi, 14 idman obyekti, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 123 fərdi ev və bir sıra obyektlər tikilmişdir. Bundan əlavə, bu dövrdə 105 elm və təhsil müəssisəsi, o cümlədən 37914 şagird yerlik 78 ümumtəhsil məktəbi, 98 inzibati bina, 27 nasos stansiyası, 20 subartezian quyusu, 31 körpü, 107 mədəniyyət müəssisəsi, 21 səhiyyə müəssisəsi, 15 idman obyekti və digər obyektlər yenidən qurulmuşdur.

Yaşayış məntəqələrinin abadlaşdırılması, yaşayış yerlərində səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində 2008-ci ildən 1 avqust 2018-ci il tarixə muxtar respublikada 4 qəsəbə və 127 kənd mərkəzi istifadəyə verilmişdir.

İnfrastruktur quruculuğunda əhali tərəfindən həyata keçirilən vəsait qoyuluşları da mühüm rol oynamış, 2018-ci ildən 1 iyul 2018-ci il tarixədək muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına 3 milyon 282 min 500 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir.

Əhalinin rahatlığına və yaşayış standartlarının yüksəldilməsinə xidmət edən kommunal-məişət sistemlərinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin tərkib hissəsi kimi içməli su və kanalizasiya sistemlərinin tikintisi və yenidən qurulması xüsusilə diqqətdə saxlanılmışdır. Bu istiqamətdə Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksi, Naxçıvan şəhərdaxili, Tumbul, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində içməli su təchizatı və kanalizasiya sistemləri istifadəyə verilmişdir.

Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin birinci və ikinci mərhələsi, Babək rayonunun Şəkərabad, Şıxmahmud və Xəlilli kəndlərinin, Culfa və Şahbuz şəhərlərinin, eləcə də ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemləri istifadəyə verilmişdir.

Şahbuz rayonunda çirkab sutəmizləyici qurğunun, Babək, Ordubad, Kəngərli və Sədərək rayon mərkəzlərində və ətraf kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin tikintisi hazırda davam etdirilir.

İqtisadiyyatın aparıcı qüvvəsi olan nəqliyyat sektorunun artan əhali tələbatına uyğun olaraq səmərəli idarə olunması istiqamətində tədbirlər davam etdirilmiş, 2008-ci ildən 1 avqust 2018-ci il tarixədək muxtar respublikada 1305,4 kilometr uzunluğunda avtomobil yolları yenidən qurulmuşdur. Bu dövr ərzində hava və dəmir yolu nəqliyyatının inkişafı istiqamətində infrastruktur yenilənmiş, inzibati və yardımçı binalar istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmişdir.

Muxtar respublikada informasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilmiş, 4-cü nəsil mobil rabitə şəbəkəsi istifadəyə verilmişdir. İnformasiya və rabitə sahəsində aparılmış tədbirlərin nəticəsidir ki, 1 iyul 2018-ci il tarixə muxtar respublikanın yaşayış ərazilərinin 98 faizində genişzolaqlı, 99 faizində isə simsiz internet xidməti göstərilmişdir.

2008-ci ildən 1 yanvar 2018-ci il tarixədək ümumi vəsait qoyuluşunun 4 milyard 911 milyon 142 min 800 manatı və ya 61,9 faizi istehsal təyinatlı obyektlərin, 3 milyard 25 milyon 863 min 600 manatı və ya 38,1 faizi qeyri-istehsal sahələrinin payına düşmüşdür.




İqtisadiyyatın sahələri üzrə ümumi vəsait qoyuluşuna görə sənaye sahəsi 30,1 faizlik payla ilk yerdə olmuşdur. Vəsait qoyuluşunun 5 faizi kənd təsərrüfatının, 8,9 faizi nəqliyyatın, 0,8 faizi informasiya və rabitənin, 14,4 faizi ticarət və xidmətin, 17,4 faizi mənzil tikintisinin, 23,4 faizi isə iqtisadiyyatın digər sahələrinin payına düşüb.

Əldə olunmuş uğurların nəticəsi olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club" Azərbaycanın iqtisadi regionlarının 2017-ci il üçün hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxmışdır.

İqtisadi fəaliyyətin bütün sahələri üzrə vəsait qoyuluşu səmərəli məşğulluğun təmini ilə yanaşı, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılmasına, muxtar respublikanın dinamik inkişafına müsbət təsir göstərməkdədir.











*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

# Yeni kənd təsərrüfatı texnikaları verilib



“Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətində kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara yeni kənd təsərrüfatı texnikaları və texnoloji avadanlıqlar verilib.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək bildirib ki, “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə bu günədək, ümumilikdə, 2367 kənd təsərrüfatı texnikası alınıb. Bunun 313-ü cari ilin ötən dövrünün payına düşür. Alınan müxtəlif adda kənd təsərrüfatı texnikaları və texnoloji avadanlıqların 1829-u lizinq yolu ilə torpaq mülkiyyətçilərinə satılıb.

Sonra lizinq yolu ilə satılan yeni texnikaların sənədləri sahibkarlara təqdim olunub. Həmin gün 11 mülkiyyətçiyə 5 traktor, 5 kotan, 2 taxılsəpən, 1 rotorlu otbiçən və 1 presvuran olmaqla, 14 ədəd texnika və texnoloji avadanlıq verilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına uyğun olaraq bu texnika və texnoloji avadanlıqların lizinq, nağd və köçürmə yolu ilə sahibkarlara satılması həyata keçirilir. Görülən bu tədbirlər muxtar respublikada aqrar sahənin, sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Hazırda kənd təsərrüfatı texnikaları lizinqə verilərkən dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsi hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilir. Texnikanın dəyərinin 40 faizi 9 il müddətinə ödənilir. Bu da aqrar sahənin, xüsusilə ailə təsərrüfatlarının inkişafına mühüm töhfə verir.

**Xəbərlər şöbəsi**

# Təkrar əkinlər bol məhsul istehsalında vacib şərtlərdən biridir

***Muxtar respublikanın iqtisadiyyatının əsasını çoxsahəli kənd təsərrüfatı təşkil edir. Burada aqrar sahənin dinamik inkişafına stimul verən səbəblərdən biri iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olmasıdırsa, başlıca amil bu sahəyə hərtərəfli dövlət qayğısının göstərilməsidir. Diyarımızın kənd təsərrüfatının təhlili göstərir ki, aqrar sahədə irəliləyişlər davamlı xarakter alıb.***



Aqrar bölmənin əhəmiyyəti nəzərə alınaraq bu sahənin inkişafı, kənd təsərrüfatı məhsulları istehsalının artırılması və intensiv amillər hesabına məhsuldarlığın çoxaldılması məqsədilə mühüm sərəncam və qərarlar qəbul olunub. Uğurla başa çatdırılmış bir sıra dövlət proqramları ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” xüsusi əhəmiyyət daşıyır. Bunun nəticəsidir ki, bu gün də muxtar respublikada aqrar sahədə istehsal və istehlak baxımından güclü maddi-texniki baza yaradılıb, yerli məhsullar hesabına əhalinin etibarlı, eləcə də davamlı ərzaq təminatına nail olunub. Bu sahədə həyata keçirilən kompleks tədbirlərin müasir texnologiyalara cavab verəcək səviyyədə reallaşdırılması istehsal olunan kənd təsərrüfatı məhsullarının həcminin və xüsusi çəkisinin artırılmasına daha dolğun şərait yaradıb.

Muxtar respublikamızda kontinental iqlim şəraiti hökm sürür, illik fəal temperaturun miqdarı çox yüksək olduğu üçün qədim əkinçilik adət-ənənələrimizi yaşadıb bugünkü nəslə çatdıran ata-babalarımızın təcrübələrindən istifadə etməklə təkrar əkinlər həyata keçirib, eyni torpaq sahəsini iki, zərurət yaranan hallarda üç dəfə əkib intensiv məhsuldarlığa nail ola, öz güzəranımızı daha da yaxşılaşdıra bilərik. O da qeyd edilməlidir ki, əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə edilməsində əkinçiliyin elmi əsaslarla inkişaf etdirilməsinin mühüm rolu vardır. Bunu nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıq və tövsiyələri əsasında 2011-ci ildə rayonlarımızın əkin atlasları hazırlanıb və həmin atlasların tələblərinə uyğun olaraq ixtisaslaşma həyata keçirilib. Hazırlanan əkin atlaslarında torpaq-iqlim xüsusiyyətləri, torpaqların qida maddələri ilə təminolunma dərəcəsi, əkiləcək bitkilərin botaniki xüsusiyyətləri nəzərə alınmaqla, sortların rayonlaşdırılması və ixtisaslaşma istiqamətləri öz əksini tapıb. Artıq kənd təsərrüfatının əkinçilik sahəsində ixtisaslaşmanın dərinləşməsi əkin sahələrinin və məhsul istehsalının artması ilə öz müsbət nəticələrini verir.

Ötən illərlə müqayisədə təkrar əkinlərin sahələrinin xeyli genişləndirilməsi, nəticə etibarilə, bu məqsədyönlü tədbirlərin əhəmiyyətliliyinin bariz nümunəsidir. Naxçıvan şəraitində mövsümə uyğun olaraq ən tez yetişib sovuşan bitkilər dənli və dənli-paxlalı bitkilərdir. Onlar buğda, arpa, noxud, lobya, paxla və eyni zamanda səbzə-tərəvəzlər, həmçinin vegetasiyasını qısa zaman kəsiyində başa vuran tərəvəzlərdir.

Təhlillərin nəticəsi göstərir ki, Naxçıvan şəraitində təkrar əkinlər iyul ayının üçüncü ongünlüyündən başlayaraq avqust ayının ikinci ongünlüyünə qədər olan dövrü əhatə edə bilər. Taxıldan sonra xiyar, lobya, mərcimək, ərzən qarpız, qarğıdalı, keşniş, soğan, şüyüd, turp, kök, aşxana çuğunduru və aylıq kələm bitkilərinin əkilməsi daha yaxşı nəticələr verir. Təklif edilən bitkilərin botaniki və biomorfoloji xüsusiyyətlərinə nəzər salarkən aydın olur ki, onların inkişaf etdiyi dövr Naxçıvan şəraitində hərarətin tədricən azaldığı vaxtlara təsadüf edir. Buna görə də bu növdən olan bitkilərin məhsuldarlıq göstəriciləri yaz əkinlərindən nəinki geri qalmır, hətta əmtəəlik qabiliyyəti daha çox üstünlüyə malik olur. Təkrar əkinlərin həyata keçirilməsi növbəli əkinlərin yaradılmasında mütərəqqi bir üsuldur.

Növbəli əkin iqtisadi və aqrotexniki cəhətdən əsaslandırılmalıdır. Bitkiçilikdə belə əkinlərin tətbiqi çox böyük əhəmiyyətə malikdir. Çünki növbəli əkində bitkilərin bioloji xüsusiyyətlərindən asılı olaraq aqrotexniki tədbirlərin aparılması, hər bir bitkinin özündən sonra torpaqda müəyyən miqdar üzvi maddə (bitki qalıqları) saxlaması, onların torpaq strukturuna təsiri və vegetasiya dövrü ərzində torpağa ifraz etdiyi kimyəvi maddələrin qalıqları bu bitkidən sonra əkilmiş başqa bitkinin boy və inkişafına xeyli dərəcədə təsir göstərmiş olur. Növbəli əkin sistemində əsas məqsəd məhz hər bitkini bioloji xüsusiyyətlərinə uyğun münasib sələf bitkisi kimi istifadə etməkdən ibarətdir.

Təkrar əkinlərin təhlilinə nəzər saldıqda bir sıra daha dolğun və maraqlı məqamlar ortaya çıxır. Belə ki, təkrar əkinlərlə torpaqların uzun illər boyu strukturunun yaxşılaşdırılması təmin olunmaqla eroziyası və aşınmasının heç bir meliorativ tədbir aparmadan qarşısı alına bilir. Əkin dövriyyəsinə daxil edilən torpaqlarda əlavə xərc çəkmədən bitki xəstəlik və zərərvericilərinə qarşı aqrotexniki mübarizə tədbirləri aparılaraq, yaxşı nəticələr əldə edilir. İstehsal olunan məhsulun maya dəyəri daha ucuz başa gəlir. Bitkiyə və torpağa lazım olan rütubət balansının yaradılması ilə suvarma sularına yazlıq əkinlərlə müqayisədə üç-dörd dəfə qənaət etmək mümkündür. Eyni zamanda təkrar əkinlərdən əldə olunan məhsullar kəmiyyət və keyfiyyət göstəricilərinə görə xaricdən idxal olunmuş məhsulla daha güclü rəqabətə girib onları yerli bazardan sıxışdırıb çıxarmaq qabiliyyətinə malikdir.

Onu da yadda saxlamaq lazımdır ki, təkrar əkinlər yazlıq bitkilərin realizasiyası ilə müqayisədə beş-altı dəfə artıq gəlir gətirə bilir. Bununla yanaşı, istehsal olunmuş məhsulların qidalılıq dərəcəsinə görə tərkibi orqanizm üçün lazım olan qida maddələri ilə daha zəngin, məhsulun əmələ gəlməsi və yetişkənliyi havaların sərin keçdiyi ərəfələrə təsadüf etdiyindən bitkilərin zərərverici xəstəliklərlə sirayətlənməsi yox dərəcəsində olur. Bu səbəbdən də heç bir kimyəvi preparatdan istifadə edilmir. Buna görə də istehsal olunan məhsulun ekoloji baxımdan saflığına zəmanət yaranır. Həmin məhsulların mövsümdən sonrakı dövrlər üçün konservləşdirilməsi və saxlanılması daha da etibarlı olur. Təkrar əkin ilboyu əhalinin yerli və keyfiyyətli məhsullarla təminatı baxımından əsaslı rol oynayır.

Adi hesablamalar da göstərir ki, əgər bu gün mülkiyyət formasından asılı olmayaraq, əkin dövriyyəsinə daxil olan torpaqlarımızın, təxminən, əlli faizində təkrar əkin həyata keçirsək, kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi sənaye istehsalını da ötüb keçə bilər.

Torpaqlardan səmərəli istifadə etməyimiz üçün isə dövlətimiz tərəfindən hərtərəfli və davamlı qayğı var.

**Əsgər HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri***

***Yaz-yay aylarında kəndlərimizi bəzəyən xoş rayihəli gül-çiçəklər, gözoxşayan yaşıllıqlar, üzərinə şeh düşən al laləli çəmənliklər, çağlayan sərin bulaqlar, qədəm qoymaqda olduğumuz qızılı payız fəslində isə ləziz meyvələri bara-bəhərə dolmuş bağ-bağatlar, bərəkətli məhsulu ilə gözoxşayan tarlalar bu yerlərin sakinlərini sağlam və gümrah saxlayır. Bütün bu gözəlliklər insanlara xoş ovqat bəxş edərək onları işgüzarlığa səsləyir. Kəndli dan yeri sökülməmiş yuxudan oyanır, səhərin təmiz havasından sinəsinə çəkib işinə başlayır. Kimi tədarük etdiyi məhsulu bazara çıxarır, kimi ailəliklə torpaq sahələrinə üz tutub mövsümi işlər həyata keçirir, kimi də mal-heyvanı otlaqlara aparır. İnsanların əzmlə çalışaraq özlərinə gün-güzəran yaratdığı kənd həyatı, bax beləcə, hər gün öz axarı ilə davam edir. Dövlət tərəfindən göstərilən dəstək isə zəhmətkeşləri torpağa daha sıx tellərlə bağlayır. Nəticədə, əkilən sahələrin miqyası ilbəil genişlənir. Sevindirici haldır ki, artıq bir çox ailələr yaradılan imkanlardan lazımınca bəhrələnib, öz fərdi təsərrüfatlarını qurublar.***

# Dövlət dəstəyi, insan zəhməti və əzmi birləşəndə uğur qazanmaq asan olur

Təqdirəlayiq haldır ki, son illər ərzində Naxçıvanın bütün bölgələrində ailə təsərrüfatları yaradılır, aqrar sahə ilə məşğul olanların sayı ilbəil artır. Əkinəyararlı münbit torpaq sahələri, bol su mənbələri ilə zəngin olan Babək rayonunda da qurulan belə təsərrüfatlar az deyil. Ötən günlərdə rayonun ən böyük yaşayış məntəqəsi sayılan Nehrəm kəndində qonaq oldum. Əvvəllər də tez-tez bu kəndə yolum düşdüyü üçün yaxşı bilirəm ki, bu yurdun sakinləri torpağa qırılmaz tellərlə bağlıdırlar. Elə dolanışıqlarını da əkin-biçinlə məşğul olub mal-heyvan saxlamaq hesabına qururlar.

Kənddə yeni təsərrüfatların yaradılması ilə sakinlərin işsizlik problemi də öz həllini tapıb. Təsərrüfat Cəfərqulu Babayevlə söhbətdən öyrənirəm ki, təsərrüfatında 40 baş iribuynuzlu mal-qara bəsləyən fermer ömrünün çoxunu əkin-biçinlə məşğul olub, mal-heyvan saxlamaqla keçirib. İllər ötsə də, zəhmətsevərliyi azalmayıb, əksinə, gündən-günə torpağa daha çox bağlanıb. Onun bu barədə dediklərindən:

– Dünyaya göz açıb özümü dərk edəndən atamın təsərrüfat işləri ilə məşğul olduğunu görmüşəm. Sovetlər dönəmində gecə-gündüz çalışmışıq ki, özümüzə yaxşı gün-güzəran yaradaq. Lakin o zaman indiki qədər şərait olmadığından istəyimiz baş tutmayıb. Həmin dövrdə su qıtlığı, yararsız otlaq sahələri üzündən mal-heyvan bəsləmək çox çətin idi. Üstəlik, torpağımız da öz əlimizdə deyildi ki, əkib-becərək. Bir sözlə, bütün bu problemlər kəndlinin gələcəyə inamını tükətmişdi. Lakin torpaqlar kəndliyə qaytarıldıqdan sonra insanların çöhrəsinə təbəssüm qondu. Bildik ki, artıq qaranlıq gecələrimiz, əzab-əziyyətli günlərimiz arxada qalıb. İllər ötdükcə vəziyyət daha da yaxşılaşdı. Mən də təsərrüfat qurub, iş-güc sahibi oldum. İndi yaşım çox olsa da, işləmək məni qətiyyən qorxutmur. Əksinə, yaxşı bilirəm ki, iş insanın cövhəridir. Yalnız zəhmət çəkib çalışmaqla nəyəsə nail olmaq mümkündür. Bir də ki, artıq gələcəyimizin təminatçısı olan müstəqil dövlətimiz var. Sevinirəm ki, övladlarım mən gördüyüm çətinliklərdən uzaqdırlar. Onu da deyim ki, təsərrüfat işi ilə məşğul olmaq asan deyil. Yəni bu sahədə tək bir insanın zəhməti ilə uğur qazanmaq olmaz. “Güc birlikdədir” deyimi bu gün ailəmizin həyat ritminə çevrilib. Şükürlər olsun ki, çəkdiyimiz zəhmət öz bəhrəsini verir.

Təsərrüfat sahibi fermasında inəklə yanaşı, camış da saxlayır. Deyir ki, bu heyvan az yemsevən olduğundan onu saxlamaq da asandır. Az yesə belə, məhsuldarlığı çox olur. Xəstəliklərə dözümlüdür. Dərisi qara olduğundan günəşin istisi ona daha çox təsir göstərir. Buna görə də camışı su hövzələrinə yaxın ərazilərdə otarmaq məsləhətdir. Kəndimizdə su sarıdan vəziyyət ürəkaçan olduğu üçün camışçılığa meyil çoxalıb. Onu da qeyd etmək lazımdır ki, bu heyvandan alınan ağartı məhsullarına tələbat da böyükdür. Camış südünün yağlılığı yüksək olduğundan, necə deyərlər, alıcısı da elə başının üstündədir.

Təsərrüfatda bəslənilən mal-qaradan alınan süddən pendir, qatıq, şor, kərə istehsal edilərək bazara çıxarılır. Cəfərqulu Babayev deyir ki, ticarətdə gərək halallıq ola. Əks-təqdirdə qazancdan heç bir xeyir tapmazsan.

Fermer hər il öz torpaq sahəsində taxıl əkini də aparır. Dövlətimiz tərəfindən ona gübrə və subsidiyaların verilməsi, eləcə də texnikalarla təminat və su bolluğu məhsuldar yığımla nəticələnir. Belə ki, o əkdiyi 12 hektar ərazidən cari ildə 30 tondan artıq məhsul tədarük edib. Artıq bir neçə gündən sonra yeni əkin üçün şum qaldırma işlərinə başlayacaq. Bu zəhmət adamı gələcək əkini daha geniş sahədə həyata keçirməyi nəzərdə tutub.

Nehrəm kəndinin zəhmətkeş sakinlərindən biri də Asəf Məmmədovdur. O, 20 ildən artıqdır, təsərrüfat işləri ilə məşğuldur. Deyir ki, torpaq sevgisi qəlbinə yol tapdısa, gün-güzəran qurmaq, qarşıya çıxan çətinliklərə sinə gərmək, bir sözlə, firavan ömür sürmək asan olar. Atalarımız çox gözəl deyib: “Nə əkərsən, onu da biçərsən”. Odur ki, gərək zəhmətə qatlaşmağı bacarasan ki, bəhrəsi də ürəkaçan ola.

Fermer əkdiyi 30 hektar taxıl sahəsindən bu il 80 tondan artıq məhsul tədarük edib. Dövlətimizin təsərrüfat sahiblərinə göstərdiyi qayğıdan geniş söhbət açan təsərrüfatçı bununla uğur qazanmağın daha asan olduğunu vurğuladı. Zəhmət adamı artıq şum qaldırma işlərini aparıb. O, bu barədə belə dedi:

– Bu gün biz kəndlilər üçün əlverişli şərait yaradılıb. Əkinəyararlı torpağımız, bol suyumuz, lazımi texnika və avadanlığımız var. Kəndliyə isə əzmlə çalışıb bol məhsul istehsal etmək qalır. Kəndimizdə taxılçılığa maraq olduqca böyükdür. Çünki hamı yaxşı bilir ki, taxıl ən dəyərli və müqəddəs nemətdir. Bu sərvətin becərilməsi böyük zəhmət tələb etsə də, uzun müddət taxılçılıqla məşğul olduğumdan iş mənə asan gəlir. Çünki toxumun əkilməsindən məhsulun tədarük edilməsinədək bütün incəlikləri öyrənmişəm. Təcrübəmə əsasən deyim ki, bol məhsul tədarükü üçün ilk olaraq əkiləcək torpağın qüvvəli olması vacibdir. Bu məqsədlə düzgün növbəli əkin aparılmalı və torpağın münbitliyini artıran gübrələr verilməli, keyfiyyətli və məhsuldar toxum növlərindən istifadə edilməlidir. Əkin yeri vaxtlı-vaxtında suvarılmalı, zərərvericilərə qarşı mübarizə aparılmalıdır. Məhsulu yetişdirmək işin əsas tərəfidirsə, onu vaxtında və itkisiz toplamaq da başlıca şərtdir. Bunun üçün isə müasir texnikanın gücündən istifadə edirik. Sadalanan işlərdə dövlətimizin dəstəyindən bəhrələndiyimiz üçün elə də çətinliyimiz olmur.

Hər bir Naxçıvan sakini yaxşı bilir ki, Nehrəm qarpızının dadı bir başqadır. Bu kəndin sakinləri adıçəkilən məhsulu dadlı-tamlı yetişdirməyi gözəl bilirlər. Ona görə də mövsüm zamanı hər kəs bu yerin qarpızına üstünlük verir. Fermer Asəf Məmmədov həm də qarpız ərsəyə gətirmək işində mahirdir. Belə ki, hər il əkib-becərdiyi ərazidən bol məhsul yığır, yaxşı qazanc sahibi olur. Cari ildə də 6 hektar ərazidə qarpız, qovun əkən fermer ürəkaçan nəticə əldə edib. Bundan başqa, taxıl tədarük etdiyi ərazinin 2 hektarında tərəvəz məhsulu da becərib. Hər həftənin şənbə günü keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkasında həmin məhsullar piştaxtaları bəzəməklə, alıcıların tələbatını ödəməklə, həm də təsərrüfat sahibinə yaxşı gəlir gətirir.

Bu gün Nehrəm kəndinin zəhmətkeş insanları ilə söhbətdən belə nəticə hasil olur ki, kəndlinin təsərrüfat qurması, firavan yaşaması üçün təminat yüksək səviyyədədir. Sakinlər bu fikirdədirlər ki, insan zəhməti və əzmi ilə dövlət dəstəyi birləşəndə yaxşı nəticələr əldə etmək olur. Buna görə də onlar yaradılan imkanlardan ruhlanır, yorulmaq bilmədən əkib-becərir, daxili bazarda məhsul bolluğu yaratmağa çalışırlar. Bu da belə deməyə əsas verir ki, gələcəkdə də bu kənd muxtar respublikanın ərzaq təhlükəsizliyinə daha böyük töhfələr verəcək.

**✍ Nail ƏSGƏROV**

Səhiyyə

# İnsan sağlamlığı cəmiyyətin sərvətidir

***Bu gün tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş dövlət proqramlarnın həyata keçirilməsi, yerli tibbi kadr hazırlığı istiqamətində görülən işlər insanlara göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, müayinələrin həcminin artmasına, xəstələrin dərmanla təchizatının əhəmiyyətli dərəcədə yaxşılaşmasına imkan vermişdir.***

Muxtar respublika səhiyyəsinin keçdiyi yola nəzər salsaq, görərik ki, Naxçıvan səhiyyəsi çox qədim tarixə malik olsa da, onun dövlət səviyyəsində təşkilatlanması ötən əsrin 20-ci illərinə təsadüf edir. Səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahəyə çevrilməsi, onun inkişaf və tərəqqisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən ümummilli liderimiz səhiyyəni cəmiyyət həyatında ən mühüm sahə kimi qiymətləndirərək demişdir: ***"Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir".***

Bütövlükdə, 1969-1999-cu illərdə muxtar respublikada 1156 yerlik xəstəxana, növbədə 1045 nəfər qəbul edə biləcək poliklinika və ambulatoriyalar tikilmişdir ki, bu da ulu öndərimiz tərəfindən əsası qoyulmuş genişmiqyaslı quruculuq və inkişaf konsepsiyasının əyani ifadəsidir.





Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva ilə bu barədə həmsöhbət olduğumuz zaman öyrəndik ki, son illər ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində müşahidə olunan uğurlu inkişaf muxtar respublikada digər sahələr kimi, səhiyyəni də əhatə edir. Dövlət qayğısının ildən-ilə artırılması səhiyyə sistemini dövrlə ayaqlaşan, qlobal dəyişikliklərə cavab verən və tərəqqi edən bir sahəyə çevirməkdədir. Ötən müddət ərzində aparılan genişmiqyaslı islahatlar çərçivəsində Naxçıvan Muxtar Respublika Xəstəxanası, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Diaqnostika-Müalicə Mərkəzi, Doğum Mərkəzi, Duzdağ Fizioterapiya, Kardioloji, Onkoloji, Yoluxucu Xəstəliklər, Gigiyena və Epidemiologiya mərkəzləri, Psixi və Ağciyər Xəstəlikləri dispanserləri, Naxçıvan Uşaq Bərpa Mərkəzi, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi, Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək Rayon Mərkəzi xəstəxanaları, kəndlərdə isə həkim ambulatoriyaları və feldşer-mama məntəqələri, digər səhiyyə müəssisələri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Ümumilikdə, 1996-2016-cı illər ərzində 266 səhiyyə obyektinin tikilərək və ya yenidən qurularaq istifadəyə verilməsi muxtar respublikada səhiyyə sahəsində görülən işlərin əsas göstəricilərindən biridir.

Dövlətimizin başçısı cənab İlham Əliyev muxtar respublikada uğurla həyata keçirilən səhiyyə islahatlarını yüksək qiymətləndirərək demişdir: ***"Mən çalışıram və istəyirəm ki, Azərbaycanın hər bir yerində yüksək səviyyəli tibbi xidmət göstərilsin. Çox şadam ki, Naxçıvanda bu sahədə böyük işlər görülür, böyük uğurlar əldə edilir".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***"Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır"*** prinsipi əsas götürülərək muxtar respublikada əhalinin sağlamlığının qorunması istiqamətində tibbi profilaktikanın genişləndirilməsi, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası daim diqqət mərkəzində saxlanılır.

Səhiyyə nazirinin müavini onu da vurğuladı ki, ölkəmizdə ilk dəfə olaraq pullu tibbi xidmətin məhz muxtar respublikamızda ləğv edilməsi əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayır. Bu və digər istiqamətdə həyata keçirilən çox mühüm islahatlar hazırda öz faydasını verməkdədir. Əhalinin hər bir təbəqəsi keyfiyyətli tibbi xidmətlə əhatə olunub. Səhiyyə sistemində tibb ocaqlarının müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchiz edilməsi, lazımi şəraitin yaradılması hər bir vətəndaşa öz sağlamlığını qorumağa imkan yaradır. Bütün ölkə vətəndaşlarının kütləvi tibbi müayinədən keçirilməsi barədə ölkə Prezidentinin müvafiq tapşırığı hər il muxtar respublikamızda da uğurla icra olunur, tibbi müayinə zamanı ilkin xəstəlikləri aşkar edilənlər, eləcə də qeydiyyatda olan xroniki xəstələr əlavə müayinələrə cəlb edilirlər.

Humanitar tibbi aksiyalar əhalinin sağlamlığının qorunmasında mühüm vasitədir. Bu sahədə yaranmış ənənə cari ildə də davam etdirilib. Ötən yarımildə Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin tərkibində olan Uşaq Ürək Cərrahiyyə Şöbəsinin həkim briqadası tərəfindən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 55 nəfərdə EXO müayinəsi, 9 ürək qüsuru olan uşaqda əməliyyat, 7 ürək xəstəliyi olan uşaqda invaziv müdaxilə aparılmışdır.

Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının 26 nəfərdən ibarət professor-həkim heyəti Telman İbadovun rəhbərliyi ilə Şərur və Ordubad Rayon Mərkəzi xəstəxanalarında, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkim briqadası Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Babək, Şahbuz və Kəngərli Rayon Mərkəzi xəstəxanalarında, 14 nömrəli orta məktəbdə, həkim-endokrinoloq Rövşən Həsənov və "Güvən" Klinikasının 7 nəfər əməkdaşı Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində əhalinin kütləvi müayinə və müalicəsini həyata keçirmişlər.



Muxtar respublika sakinlərinin sağlamlığının və rifahının yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması, təbii ki, demoqrafik göstəricilərdə də öz müsbət əksini tapdığını vurğulayan nazir müavini qeyd etdi ki, belə göstəricilərdə, ilk növbədə, əhalinin maddi rifahı mühüm rol oynayır. Həyata keçirilən səhiyyə islahatları nəticəsində 1 yaşa qədər uşaqlar arasında ölüm sayı kəskin şəkildə aşağı düşmüşdür. Belə ki, hər 1000 nəfər hesabı ilə 1 yaşa qədər ölən uşaqların sayı 1995-ci ildə 20,6 nəfər olmuşdursa, 2016-cı ildə bu göstərici 1,5 nəfər təşkil etmişdir. Cari ilin ötən yarımilində 2 min 445 uşaq doğulmuş, təbii artım 1463 nəfər olmuşdur. Səhiyyənin inkişafı, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatı və digər bu kimi mühüm tədbirlər əsas demoqrafik göstərici olan orta ömür uzunluğunun artımına da ciddi təkan vermişdir. Belə ki, 1995-ci ildə muxtar respublikada orta ömür uzunluğu 69 yaş, o cümlədən kişilərdə 65,3, qadınlarda isə 72,5 yaş təşkil edirdisə, 2016-cı ilin yekun nəticələrinə görə, bu göstərici 78,6 yaş, o cümlədən kişilər üçün 76,3, qadınlar üçün isə 80,9 yaş səviyyəsində olmuşdur.

Onu da öyrəndik ki, muxtar respublikanın səhiyyə sistemində aparılan islahatlara uyğun olaraq Stomatoloji Mərkəz, Darıdağ Arsenli Su Müalicəxanası, Duzdağ Fizioterapiya Mərkəzinin və Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin publik hüquqi şəxsə çevrilməsi Naxçıvan səhiyyəsində yeni üfüqlər açmışdır. Həmin müəssisələrin göstərdiyi tibbi xidmətlərin siyahısı və tarifləri təsdiq olunmuşdur. Sədərək rayonunda isə icbari tibbi sığortanın təşkili ilə əlaqədar rayon mərkəzi xəstəxanası kompüterlərlə təmin edilərək səhiyyə informasiya sistemi yaradılmış, ehtiyac olan tibbi avadanlıqlarla təchiz edilmişdir. Gələcəkdə icbari tibbi sığortanın digər rayonlarda da tətbiqi səhiyyəni yeni inkişaf mərhələsinə çıxaracaqdır.

Əhaliyə tibbi xidmət göstərən səhiyyə müəssisələri və tibb işçiləri ilə təminat məsələsi də daim diqqət mərkəzində saxlanılır. Belə ki, hazırda Naxçıvan Muxtar Respublikasında 205-i rayonlarda olmaqla, əhaliyə 228 tibb müəssisəsi tərəfindən tibbi xidmət göstərilir. Bu tibb müəssisələrində 720 həkim, 2097 orta tibb işçisi çalışır. Təkcə ötən il bu müəssisələrə 34 həkim və 94 orta tibb işçisi təyinat almışdır. Muxtar respublika üzrə hər 10 min nəfərə 15,8 həkim, 46,2 orta tibb işçisi düşür. Səhiyyə müəssisələrinin ixtisaslı kadrlarla təminatı diqqətdə saxlanılır. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində baza tibb təhsili, bakalavr və rezidentura pillələri üzrə kadr hazırlığı həyata keçirilir. Baza tibb təhsili üzrə Müalicə işi, Tibbi profilaktika, Stomatologiya, bakalavr pilləsi üzrə isə Əczaçılıq ixtisasları üzrə kadrlar hazırlanır. 2017-2018-ci tədris ilində fakültəni 75 nəfər bitirib. 2018-2019-cu tədris ilində Tibb fakültəsinə 126 tələbə qəbul olunub. Bunlardan 54 nəfəri xarici ölkə vətəndaşıdır. 2018-ci ilin sentyabr ayına olan məlumata görə, fakültənin rezidentura pilləsində 23 ixtisas üzrə 44 tələbə təhsil alır. Onlardan 5 nəfəri rezidenturanı bu il bitirəcək. 2018-2019-cu tədris ilində isə ayrılmış plan yerlərinə qəbul olmuş tələbələrin qeydiyyatı davam edir. Naxçıvan Tibb Kolleci də orta tibb işçiləri hazırlamaqla muxtar respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsinə öz töhfəsini verir. Ötən tədris ilində kolleci 5 ixtisas üzrə 231 məzun bitirib. Yeni tədris ilindən burada 239 nəfər orta tibb təhsili almağa başlayacaq.

Naxçıvanın səhiyyə müəssisələrində çalışan ağxalatlı peşə sahiblərinin əməyi dövlətimiz tərəfindən həmişə layiqincə qiymətləndirilir. Həkimlərdən 105 nəfəri "Azərbaycan Respublikasının Əməkdar həkimi" və "Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi" fəxri adlarına layiq görülmüşdür.

*Ölkəmizdə, eləcə də muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzadılmasına xidmət edir. İnanırıq ki, tibb işçilərimiz bundan sonra da muxtar respublika səhiyyəsinin inkişafına öz töhfələrini verəcəklər.*

**Ramiyyə ƏKBƏROVA**

## Pensiyalar vaxtında ödənilib

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu avqust ayında əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmışdır. Hesabat ayında fondun gəlirləri 3 milyon 633 min manat proqnoza qarşı 4 milyon 991 min 230 manat həcmində yerinə yetirilmiş və proqnoz tapşırıqlara 137,4 faiz əməl olunmuşdur.

Həmçinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 91 vətəndaşa əmək pensiyası təyin olunmuşdur. Bundan başqa, sığorta-pensiya sistemində fərdi uçotun tətbiqi dairəsi daha da genişlənmiş, əmək fəaliyyətinə yeni başlayan işçilərin fərdi uçot sistemində qeydiyyata alınması və sosial sığorta şəhadətnamələri ilə təmin olunması diqqətdə saxlanılmış, fərdi uçot sistemində uçota alınan sığortaolunanlar haqqında məlumatların sığortaolunanların fərdi şəxsi hesablarına işlənilməsi həyata keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Ekoloji tədbirlər diqqət mərkəzindədir



*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi avqust ayında fəaliyyətini nazirliyin iş planına uyğun qurmuş, bu dövrdə qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılmışdır.*

Ötən dövrdə Xal-xal, Şonqar, Nehrəm Gölaltı, Uzunoba, Rüstəm meşələrində, Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarlarında, Uzunoba gölü ətrafında, püstə bağı ərazisində, yaz əkin mövsümündə əkilən ərazilərdə aqrotexniki tədbirlər davam etdirilmiş, suvarma və becərmə işləri aparılmışdır. Hesabat ayında 2 min kiloqramdan çox meyvə, meşə, həmişəyaşıl və gül toxumları tədarük edilmiş, payız əkinlərinin aparılmasına hazırlıq işləri görülmüşdür.

Meşələrdə və digər təbiət ərazilərində yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə meşələrə, yaşıllıqlara yaxın yaşayış məntəqələrində əhali ilə görüşlər keçirilmiş, maarifləndirici söhbətlər, təbiətə olan neqativ təsirlərin qarşısının alınması üçün 13 yoxlama-reyd aparılmışdır. Həmçinin istifadə edilən suların ekoloji vəziyyətinin nəzarətdə saxlanılması və standartlara uyğunluğunun öyrənilməsi məqsədilə 9 monitorinq-yoxlama keçirilmişdir.

Payız-qış mövsümünə hazırlıqla əlaqədar qida ehtiyatının yaradılması, meşə fondu ərazilərindən biçilmiş otların toplanaraq anbarlaşdırılması, daşduz ehtiyatının yaradılması, eləcə də payız əkin mövsümünə hazırlıq və digər tədbirlərin icrası davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Məktəb və uşaq bağçalarında tibbi xidmətin təşkili ilə əlaqədar tədbir keçirilib

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən tədbiri giriş sözü ilə səhiyyə nazirinin müavini Samrat Gəncəyeva açaraq muxtar respublikada fəaliyyət göstərən məktəblərdə və bağçalarda tibbi xidmətin təşkili ilə bağlı yaradılan şəraitdən bəhs edib.*

Bildirilib ki, bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində məktəblər və bağçalar üçün müasirtipli binalar istifadəyə verilib. Sevindirici haldır ki, həmin müəssisələrin hər birində uşaqlara ilkin tibbi xidmətin göstərilməsi üçün lazımi şərait yaradılıb. Bu da, təbii ki, səhiyyə işçilərinin öz vəzifələrini yerinə yetirmələri üçün geniş imkanlar açır. Buna görə də məktəb və bağçalarda tibbi xidmətin daha da yaxşılaşdırılması məqsədilə hər bir əməkdaş səylə çalışmalıdır.



Tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Ümumtəhsil məktəbləri və liseylərlə iş üzrə şöbə müdiri Abdulla Əsgərov çıxış edərək vurğulayıb ki, bu gün muxtar respublikada təhsil sahəsi hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Təhsil sistemində uğurlu islahatlar aparılması ilə yanaşı, müasirtipli binalarda fəaliyyət göstərən təhsil ocaqlarında oxuyan məktəblilərin sağlamlıqları da diqqətdə saxlanılır. Bu məqsədlə məktəblərdə tibb işçilərinin səmərəli fəaliyyəti üçün hərtərəfli iş şəraiti yaradılıb.

Sonra Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkiminin müavini İlkay Əliyeva məktəb və bağçalarda tibbi xidmətin təşkili ilə bağlı iştirakçılara ətraflı məlumat verib. Digər çıxış edən səhiyyə işçiləri də məsələ ilə bağlı fikirlərini bildiriblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Nail ƏSGƏROV**

# Azərbaycan kinosunun şah əsəri – “BABƏK”

## Filmin Naxçıvanda çəkildiyi məkanlarda və ya sərkərdə dağların qoynunda...

***Bu il 120 illiyini qeyd etdiyimiz Azərbaycan kinosunun şah əsərlərindən biri də tariximizin əsrlərdən bəri yaşayan, nümunə olan, adı ilə öyünülən xalq qəhrəmanı, Xürrəmilər hərəkatının görkəmli rəhbəri, sərkərdə Babəkin azadlıq uğrunda apardığı amansız mübarizəsindən bəhs edən “Babək” filmidir.***



Ulu öndərimiz Heydər Əliyevin xüsusi tapşırığı ilə çəkilən filmin ssenari müəllifi Ənvər Məmmədxanlı, quruluşçu rejissoru Eldar Quliyev, bəstəkarı Polad Bülbüloğludur. Rollarda Azərbaycan kinosunun korifeyləri – Rasim Balayev, Şahmar Ələkbərov, Həsənağa Turabov, Amaliya Pənahova, Hamlet Xanızadə, Ənvər Həsənov, Hacımurad Yegizarov, Səməndər Rzayev, Muxtar Manıyev, Mikayıl Mirzə və başqaları çəkiliblər.

“Babək” filmini hətta sovet kino tarixinin də ən bahalı filmləri sırasına daxil edirlər. Belə ki, filmin büdcəsi 1 milyon 650 min rubl təşkil edib. Bu, həmin dövr üçün çox böyük bir rəqəm idi. Təkcə Azərbaycanda deyil, Rusiyada, Gürcüstanda, Özbəkistanda 16 fabrik film üçün 1500 dəstdən artıq paltar hazırlayıb. 60-a yaxın ölkə tərəfindən alınan film təkcə bir il ərzində 35 milyon tamaşaçı tərəfindən izlənilib. Ekran əsəri 1-ci kateqoriyaya layiq görülüb.

Filmin çəkilişləri, əsasən, qədim Naxçıvanda, Ramana qalasında, “Azərbaycanfilm” kinostudiyasının pavilyonunda, Suraxanıdakı “Atəşgah” məbədində aparılıb. Tamaşaçılar tərəfindən həmişə maraqla izlənilən Bəzz qalası və həmin ərazidə gedən qanlı döyüşlərin səhnələri Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Camaldın və Ərəzin kəndlərinə yaxın ərazilərdə, Dərəlik və Darıdağda lentə alınıb.

### *Naxçıvan xalq qəhrəmanı ilə bağlı filmin çəkilişləri üçün ideal məkan idi*

O vaxtlar çəkilişləri yaxından izləyən və bu gün Culfa Rayon Mədəniyyət Evinin direktoru vəzifəsində işləyən Qurban Nəcəfovla filmin Naxçıvanda çəkildiyi ərazilərdə olduq. Yolüstü olduğu üçün əvvəlcə Xürrəmilərin qələbə xəbərini sevinclə müjdələyən uşaqların çəkildiyi məkana gəldik. Bu ərazi qədim və nəhəng İpək Yolunun bir parçası hesab edilən, möhtəşəmliyi ilə gözoxşayan Culfa-Naxçıvan magistral yolunun yanında yerləşir. İstər-istəməz düşündüm ki, bunun həm də məcazi mənası var. Belə ki, bu gün müstəqilliyimizi gücləndirən, bizi qələbəyə aparan Heydər Əliyev yolunun əsası Naxçıvanda qoyulub. Vaxtilə çəkilişlər aparılan ərazidə salınan bu möhtəşəm yol da məhz ulu öndərin siyasi xəttinin bəhrəsidir. O siyasi xətt ki bu gün dövlətimizin başçısı tərəfindən uğurla davam etdirilir. O siyasi xətt ki bizi Böyük Qələbəyə aparır...

Buradan vaxtilə Bəzz qalasının dekorasiyasının qurulduğu yerə yollanırıq. Bu da həmin ərazi. Bir anda filmdəki kadrlar – səf-səf düzülən qoşunlar, hücuma keçən süvarilər, Vətən, torpaq uğrunda cəngə atılan igidlərin xəyalı gözlərimin önündə canlanır. Xalq qəhrəmanı Babəkin qətiyyətlə dediyi “Qırx il qul kimi yaşamaqdansa, bir gün azad yaşamaq daha yaxşıdır!” çağırışı sanki qayalarda əks-səda verir. Burada Naxçıvan dağlarının əzəməti də Babək dəyanətinin simvolu kimi diqqəti çəkir. Əraziyə nəzər yetirdikdə əmin olursan ki, filmin çəkilişləri üçün ən ideal məkan da məhz bura ola bilərdi.

Qurban Nəcəfov yaxınlıqdakı təpəni göstərərək deyir ki, gecə vaxtı Əbu Müəzzin ordularını təşvişə salan hadisələrin kadrları da burada çəkilib. Həmin çəkilişlərdə bəzi aktyorlar məşəli, əksəriyyəti isə yanan şamı havaya qaldırıb sağa-sola hərəkət etdiriblər. Kadrlardan da göründüyü kimi, bu, uzaqdan çox möhtəşəm bir görüntü yaradıb.

Çəkiliş meydançasına gözəl atlar gətirildiyini deyən Qurban Nəcəfov qeyd etdi ki, onlar Moskvadan “Mosfilm”in “Kavaler polku”nun diviziyasının atları idi. Diviziyanın əsgərləri də gətirilmişdi. Bununla bərabər, Naxçıvandakı sərhəd qoşunlarının hərbçiləri də çəkilişlərə cəlb edilmişdi. Ancaq yenə də kütləvi səhnələr alınmırdı. Ona görə də çəkilişlərə yerli sakinlər dəvət edilirdi. Ətraf kəndlərdən bura çox sayda sakin gəlsə də, demək olar ki, hər gün lazım olan 4-5 min insanı toplamaq mümkün olmurdu. Çəkilişlərin aparıldığı vaxtlar Naxçıvanda üzüm yığımına başlanıldığına görə kütləvi səhnə iştirakçılarını yetəri qədər yığmaq olmur, çəkilişlər ləngiyirdi. Lakin birdən-birə insanlar sel kimi çəkiliş meydançalarına axışdılar. Həmin vaxt deyirdilər ki, ümummilli liderimiz Heydər Əliyev məsələyə müdaxilə edib. Tapşırıq verib ki, heç bir məsələ “Babək” filminin çəkilişi qədər əhəmiyyətli ola bilməz, bunun üçün lazım olan bütün şərait yaradılmalıdır. “O vaxt çəkiliş qrupundakı insanların sevincini görməyə dəyərdi. Dahi şəxsiyyətin tarixi keçmişimizə göstərdiyi çox böyük diqqət maneələri aradan qaldırdı”, – deyən Qurban Nəcəfov həmin günləri belə xatırladı.

Çəkilişlərin aparıldığı günlərdə Naxçıvanda havaların çox isti keçdiyini də vurğulayan həmsöhbətim əlavə edir ki, bu ərazilərdə kölgəlik bir yer olmadığına görə, iştirakçılar istidən əziyyət çəkirdilər. Düzdür, bəzi yerlərdə dincəlmək üçün çadırlar qurulmuşdu. Ancaq bu da faydasız idi, çünki çadırların içərisi də çox isti olurdu. Yadımdadır ki, bir dəfə fasilə vaxtı çəkiliş heyəti üçün çay süzmüşdülər ki, içsinlər, susuzluqları keçsin. Onlar xeyli gözləsələr də, çay soyumadı. Çünki havanın hərarəti buna imkan vermirdi. Məcbur qalıb çəkiliş yerlərinə qayıtmalı oldular.

Çəkilişlər zamanı xoşagəlməz hadisələr də az olmayıb. Onun dediklərindən: “Bir dəfə böyük aktyorumuz Rasim Balayevin mindiyi at, necə deyərlər, yaramazlıq etməyə başladı. O, az qalmışdı ki, yıxılsın. Aktyorun hər iki ayağını ata sıx bağladılar. Çəkiliş başa çatandan sonra Rasim Balayev deyirdi ki, məni Allah qurtardı, yoxsa dərəyə yuvarlanıb şil-küt olacaqdım. Bundan başqa, Babək rolunun ifaçısının əynindəki geyimlər donuz dərisindən hazırlanmışdı, qılınc-qalxanla birlikdə 30 kiloqramdan çox idi. Bu geyimlə 50 dərəcə istidə, qızmar Günəş şüalarının altında mis dəbilqə ilə hərəkət etmək iradə, cəsarət, qətiyyət tələb edirdi”.

Artıq geriyə, Naxçıvan şəhərinə qayıdırıq. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru, “Babək” filmində epizodik rolda çəkilən, Xalq artisti Rövşən Hüseynovla da görüşüb həmsöhbət oluruq. O deyir ki, hər gün səhər saat 6-dan axşam saat 11-ə qədər çəkiliş meydançasında olurduq. Diqqətimizə onu da çatdırır ki, epizodik rolda çəkilənlərin böyük əksəriyyəti aktyor deyildi, onları bir yerə cəm edib film çəkmək asan olmurdu. Bundan başqa, istidən insanlar o qədər susayırdı ki, su maşınları gələndə hamı ona doğru can atırdı. Bəzən buna görə çəkilişlər yarıda kəsilməli olurdu. Atların alınlarını yaş dəsmalla bağlayırdılar ki, günvurmadan ölməsinlər. Dəbilqələrimiz istidən qızıb başımızı yandırırdı. Bəzən çəkilişlər zamanı özündən gedənlər də olurdu. Qocalar, uşaqlar, qadınlar daha çox əziyyət çəkirdilər. Ancaq hamı dözürdü.

İnsanların bu qədər dözülməz bir vəziyyətə necə tab gətirdiklərini soruşduqda Rövşən Hüseynov dedi ki, ulu öndərimiz Heydər Əliyevin filmin əhəmiyyətini vurğulaması, çəkilişlərin başa çatdırılması barədə xüsusi tapşırıq verməsi naxçıvanlılarda böyük ruh yüksəkliyi yaratmışdı. Hamı çəkiliş sahəsinə axışır, dahi insanın tapşırığının yerinə yetirilməsi üçün var-qüvvəsi ilə səy göstərirdi. Bunu görən filmin rejissoru Eldar Quliyev dəfələrlə naxçıvanlılara ürəkdən minnətdarlıq edirdi. Mən əminliklə deyərdim ki, bütün bunlar bizim ulu öndərimizə olan sonsuz məhəbbətimizin təzahürü idi.

“Babək hərəkatı Azərbaycanın qəhrəmanlıq tarixidir. Onun qürurverici adı indi də xalqımızın qəlbində yaşayır və əbədi yaşayacaqdır. Təsadüfi deyildir ki, muxtar respublikamızın böyük bir rayonunda xalq qəhrəmanının adı əbədiləşdirilib: Ulu öndərimizin təşəbbüsü ilə Babək rayonu yaradılıb”, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Fərəc Fərəcov 14 il Əmir Teymurun ordularına müqavimət göstərən, Babək kimi qəhrəmanların oylağı olan Əlincəqalada bizimlə söhbətində filmin çəkilişləri ilə bağlı xatirələrini də bölüşdü: “Culfadan Naxçıvan istiqamətinə yolumuz düşəndə filmin personajlarını, Babək rolunun ifaçısı Rasim Balayevi və onun “silahdaşları”nı görmək bizdə maraq doğururdu. Bu gün mən də muxtar respublika sakini kimi qürur duyuram ki, Azərbaycanın qəhrəmanlıq səhifələrini əks etdirən “Babək” filmi Naxçıvanda çəkilib”.

Filmin çəkilişlərinin əksəriyyətinin bu qədim torpaqda aparılmasının rəmzi mənasının olduğunu da qeyd edən Fərəc Fərəcov vurğulayır ki, Naxçıvan sakinləri tarixboyu düşmənə qarşı barışmaz mövqedə olublar. Bu yurdda böyüklü-kiçikli hər bir sakin öz torpağını qorumaq naminə canını belə, əsirgəməyib. Necə ki qəhrəman naxçıvanlılar 1918-1920-ci və 1988-1993-cü illərdə işğalçı ermənilərlə ölüm-dirim savaşına girib muxtar respublikamızı qoruyub yaşatdılar. 2018-ci ilin may ayında isə ordumuzun gücü sayəsində vaxtilə erməni əsarətinə düşmüş Günnüt kəndini, ətraf ərazilərini, strateji yüksəklikləri düşməndən azad etdilər.

Tarixi qəhrəmanlıq keçmişindən bəhs edən ekran əsərləri, o cümlədən “Babək” filmi bu gün Azərbaycan insanını, Azərbaycan əsgərini erməni qəsbkarları üzərində reallaşacaq Böyük Qələbəyə ruhlandırır.

### *Dahi şəxsiyyət olmasaydı, milli kinomuzun milli ruhu da olmayacaqdı*

Həmin dövrü təhlil edərkən düşünürsən: necə olub ki, o vaxtlarda, sovet ideologiyasının “qılıncının dalının da, qabağının da kəsdiyi” bir vaxtda “Babək” kimi milli ruhu alovlandıran, milli ideologiyanı, milli azadlıq eşqini, Azərbaycançılığı təbliğ edən belə bir film çəkilib? Necə olub ki, kəskin sovet senzurası buna imkan verib? Cavab birdir: bu filmin ərsəyə gəlməsində Heydər Əliyev şəxsiyyəti, onun böyük nüfuzu mühüm rol oynayıb. Dahi şəxsiyyət olmasaydı, milli kinomuzun milli ruhu da olmayacaqdı.

Aşkar görünür ki, bu film həm də ümummilli liderimizin müstəqil, azad Azərbaycan arzularının ifadəsinə çevrilmişdi. Sovet rejiminin sərt ideologiyasının hakim kəsildiyi bir vaxtda Babəkin dilindən deyilən “Azadlıq verilmir, alınır! Qan bahasına, qurban bahasına!” və ya “İnam və əqidə mənim üçün qumar daşı deyil. O, mənə ya ölüm deyir, ya da azadlıq!”, “Azərbaycanı azad görməyincə qılıncımı qınına qoymayacağam!” sözləri, əslində, Azərbaycan xalqını müstəqilliyə, azadlığa çağıran, onun birbaşa ictimai şüuruna təsir göstərməyə hesablanan çox cəsarətli, həm də qətiyyətli və incəlikləri dərindən düşünülmüş bir təbliğat xarakterli fikirlər idi. Bu, dahi şəxsiyyətin hələ sovet dövründə Azərbaycana, onun müstəqilliyinə, azadlığına nə qədər böyük əhəmiyyət verdiyini aşkar şəkildə göstərən əsaslı faktlardır.

Azadlıq aşiqi olan xalq qəhrəmanı Babəkə həsr olunmuş filmin qəhrəmanlıq, şücaət dolu səhnələrinin Naxçıvanda çəkilməsi taleyin hökmü idi. Çünki yuxarıda qeyd etdiyimiz kimi, məhz Naxçıvanda yaranan azadlıq, müstəqillik idealları, dövlətçilik konsepsiyası 1993-cü ildən sonra, yəni ulu öndərin Naxçıvandan Bakıya getməsi ilə birlikdə bütün ölkəmizə yayıldı. Sərkərdə Babəkin və neçə-neçə Azərbaycan fədailərinin arzuları məhz bundan sonra həyatda öz təsdiqini tapdı.

✍ **Rauf KƏNGƏRLİ**

## Gömrükçülərimiz Ermənistan komandasını məğlub edib



***Belarusun Brest şəhərində keçirilən gömrük xidmətləri arasında futzal üzrə 12-ci açıq birincilikdə Azərbaycan gömrükçüləri növbəti görüşünü dünən Ermənistan komandasına qarşı keçirib.***

Ölkəmizi yarışda təmsil edən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin komandası oyunu rəqibindən aşkar üstün şəraitdə keçirərək 4:0 hesabı ilə qalib gəlib. Ramazan Ağayev, Kamil Hacıyev, Orxan Məmmədov, Cavid Xəlilov, İlqar İsmayılov və Rahil Tahirlidən ibarət start heyətlə meydana çıxan komandamız turnirdə ilk qələbəsini qazanıb.

Qeyd edək ki, gömrükçülərimiz növbəti görüşünü sentyabrın 13-də Ukrayna komandasına qarşı keçirəcək. Turnirə 5 ölkə – Azərbaycan, Rusiya, Belarus, Ukrayna və Ermənistan komandaları qatılıblar. Brest şəhəri isə yerli komanda ilə təmsil olunur.

**Xəbərlər şöbəsi**

## İdman tədbirləri diqqətdə saxlanılır

Avqust ayında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən muxtar respublikada idmanın kütləviliyinin təmin edilməsi diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublikası idman federasiyaları idmançılarının Ağbulaq İstirahət Mərkəzində “Yay məktəbi” təşkil edilmişdir. Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının idmançılarına texniki-taktiki seminar, Naxçıvan Şəhər Üzgüçülük Mərkəzində gənc oğlan və qızlar arasında üzgüçülük üzrə Naxçıvan şəhər birincilikləri keçirilmişdir.

Türkiyənin Malatya şəhərində şahmat üzrə keçirilən VI beynəlxalq “Qızıl ərik” şahmat festivalında Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının, Türkiyənin Samsun şəhərində keçirilən cüdo üzrə beynəlxalq turnirdə Naxçıvan Muxtar Respublikasının cüdo üzrə yığma komandasının, İran İslam Respublikasının Urmiya şəhərində karate üzrə keçirilən ənənəvi “Urmiya Open” Beynəlxalq çempionatında Naxçıvan Muxtar Respublikasının Karate-do Federasiyasının idmançılarının iştirakı təmin edilmiş, 12 avqust – Beynəlxalq Gənclər Günü münasibətilə Naxçıvan Şahmat Mərkəzində gənclər arasında şahmat üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilmişdir. Bundan başqa, gənc idmançıların Naxçıvan şəhərində yerləşən muzeylərə gəzintiləri təşkil edilmiş, idmanın müxtəlif növləri üzrə şəhər və rayon birincilikləri, yoldaşlıq görüşləri təşkil olunmuşdur.

Avqust ayında idmançılarımız muxtar respublika birinciliklərində 3, beynəlxalq turnirlərdə 7 olmaqla, 10 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 654